# Caspian Audit Company

ADDRESS: A.Salamzade str. 65b Baku, Azerbaijan
TELEPHONE: (994 12) 561 38 80/85
FAX: (994 12) 562 90 43
MOB.: (+99450) 220-09-84
(+99470) 220-09-84
EMAIL: caspian_audit@hotmail.com

**AUDİTOR RƏYİ**
**SERİYA № 00295**

## «KASPİAN AUDİT KOMPANİ» MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ AUDİTOR RƏYİ AZƏRBAYCAN RESPUBLIKASI DÖVLƏT SIĞORTA KOMMERSIYA ŞIRKƏTININ IDARƏ HEYƏTINƏ

Biz,Azərbaycan Respublikası Dövlət Sığorta Kommersiya Şirkətinin (bundan sonra Şirkət) 31 dekabr 2018-ci il tarixinə maliyyə vəziyyətinə dair hesabatının, məcmu gəlirlərə dair hesabatının, kapitalda dəyişikliklər hesabatının və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hesabatının, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsvirində daxil olmaqla, maliyyə hesabatlarına qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Hesab edirik ki, əlavə edilmiş maliyyə hesabatları Şirkətin 31 dekabr 2018-ci il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Beynəlxalq Maliyyə Hesabatları Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.

**Rəy üçün əsaslar**

Biz auditi Beynəlxalq Audit standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətimiz əlavə olaraq hesabatın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz Azərbaycan Respublikasında maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq Şirkətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə uyğun yerinə yetirmişik. Hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və Şirkətin idarə edilməsinə məsul şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının Beynəlxalq Maliyyə Hesabatları Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatları hazırlanan zaman rəhbərliyin Şirkəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Şirkətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunda fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarına görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olub - olmadığına dair kafi əminlik əldə etmək və auditor hesabatını (rəyin daxil olduğu) təqdim etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o BAS-lara uyğun aparılmış auditin əhəmiyyətli təhrifləri hər bir halda aşkar edəcəyinəzəmanət vermir. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.

**Rəy "22" Fevral 2019-cu il tarixində tərtib edilmişdir.**

**"Kaspian Audit Kompani" MMC-nin**

**Direktoru** **Məhərrəmzadə Ə.S.**

**Auditor** **Məhərrəmov C.S.**